

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 28 (21.689)

9 fevral 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Baş naziri yanında dövlət islahatları və asanlaşdırma məsələləri üzrə Dövlət katibi, hökumətin üzvü və Ekologist Partiyasının sədri Jean-Vincent Plasenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı İlham Əliyev Jean-Vincent Plasenin Azərbaycana səfərinin ölkəmizlə yaxından tanışlıq üçün yaxşı fürsət yaradacağına və keçiriləcək görüşlərin əlaqələrimizin inkişafı baxımından maraqlı olacağına əminliyini ifadə edib.

Fransa Respublikasının Baş naziri yanında dövlət islahatları və asanlaşdırma məsələləri üzrə Dövlət katibi, hökumətin üzvü və Ekologist Partiyasının sədri Jean-Vincent Plase Azərbaycan hökumətinin üzvləri və eləcə də ölkəmizin müxtəlif iqtisadi qurumlarının rəhbərləri ilə keçirəcəyi görüşlərdən danışdı. Bakıda Fransız liseyi, Fransa-Azərbaycan Universiteti və “Ağ şəhər”lə tanış olacağını deyən qonaq ətraf mühitin mühafizəsi ilə bağlı Fransa-Azərbaycan əməkdaşlığından məmnunluğunu ifadə etdi. O, Azərbaycanda ətraf mühitin mühafizəsi ilə bağlı görülən işlərlə də yaxından tanış olmaq arzusunu bildirdi.



## AMEA Naxçıvan Bölməsində keçilən interaktiv dərsi muxtar respublikanın 200-dən çox məktəbindən izləyiblər




Fevralın 8-də AMEA Naxçıvan Bölməsində “Naxçıvanın muxtariyyəti: tarix və müasirlik” mövzusunda keçilən interaktiv dərsdə bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvanın muxtariyyəti məsələsi XX əsrin 20-ci illərində bölgədə baş vermiş ictimai-siyasi hadisələrin nəticəsində meydana çıxıb. Qədim diyara muxtariyyət statusunun verilməsi zəruri tarixi-siyasi, coğrafi amillərdən irəli gəlib. Naxçıvanın muxtariyyət qazanması onun Azərbaycanın tərkibində qalmasına, inkişaf etməsinə əhəmiyyətli hüquqi-siyasi zəmin yaradıb. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda respublikamızın tərkibində qalmasını şərtləndirən Moskva və Qars müqavilələri imzalanıb. Beynəlxalq Moskva və Qars müqavilələri Naxçıvanın ərazisinin toxunulmazlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edib. Həmin sənədlər əsasında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının təşkil olunması ilə birlikdə qədim diyarın təhlükəsizliyi və gələcək inkişafı da təmin edilib.

Qeyd olunub ki, Naxçıvan Azərbaycanın böyük dövlətçilik ənənələrinə malik olan qədim diyarıdır. X əsrdə burada “Naxçıvan şahlığı”nın, XII əsrdə isə Atabəylər dövlətinin yaranması da bunu təsdiq edir. Bundan əlavə, XVIII əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına əsaslı töhfələr verib. XX əsrin əvvəllərində həmin dövlətçilik ənənələrinin əsasında 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası yaradılıb. Bu respublika qədim diyarın düşmənlərdən müdafiəsi və ərazisinin qorunub saxlanılması üçün əhəmiyyətli rol oynayıb. Bu mənada, Naxçıvanın muxtariyyət qazanması həm də tarixboyu yaranan dövlətçilik ənənələrinin davam etdirilməsinə rəvac verib. Həmin dövlətçilik ənənələrini yaşadan naxçıvanlılar 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında Naxçıvan Muxtar Respublikasının yaradılması üçün böyük səy göstəriblər. Əhali qədim diyarın Azərbaycanın tərkibində saxlanılması üçün istər hərbi, istərsə də siyasi-diplomatik sahələrdə fədakarlıqla mübarizə aparıb.

“Ulu öndər Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə böyük nailiyyət kimi qiymətləndirib. Türk dünyasının böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə qədim diyarın toxunulmazlığı istiqamətində mühüm tədbirlər həyata keçirib”, – deyən akademik İsmayıl Hacıyev vurğulayıb ki, həmin illərdə Naxçıvanda qəbul edilən tarixi qərarlar həm də Azərbaycan dövlətçiliyinin formalaşması, onun tərəqqisi, milli iqtisadi strategiyanın müəyyənləşdirilməsi, diplomatik münasibətlərin qurulması kimi əhəmiyyətli məsələlərdə mühüm rol oynayıb. Akademik bildirib ki, 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbov Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir. Ötən dövrdə Ali Məclis Sədrinin rəhbərliyi ilə bölgənin üzləşdiyi problemlər müəyyənləşdirilib və onların həllinə başlanılıb. İqtisadiyyatın dirçəlməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilib, yeni iş yerləri yaradılıb. İrimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri genişlənib, tarixə, mədəniyyətə, təhsilə, elmə qayğının yeni mərhələsi başlanıb, sənaye və kənd təsərrüfatının inkişafına diqqət artırılıb, ümumi daxili məhsulun həcmi ilbəil yüksəlib. Nəticədə, Naxçıvan hazırda çiçəklənən bir diyara çevrilib.



Naxçıvan Qarnizonunun tam orta məktəbi



Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbi



Culfa rayon Gülüstan kənd tam orta məktəbi

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə keçilən interaktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil müəssisəsində izlənilib.

✍ Səbuhi HƏSƏNOV

## Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının şura iclası keçirilib

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov çıxış edərək ötən ilin yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə danışıb. Qeyd olunub ki, hesabat ilində ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisələr baş verib. Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi (referendum) keçirilib, dövlət müstəqilliyimizin 25-ci ildönümü geniş qeyd olunub. Bu siyasi hadisələrdə partiya üzvləri yaxından iştirak ediblər.

Vurğulanıb ki, hesabat ilində ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, təşkilat sədrlərinə metodik köməkliklər göstərilib, ərazi prinsipinə görə 54 ilk partiya təşkilatı 47 ilk təşkilatda birləşdirilib. Partiya üzvlərinin uçotunun operativliyini təmin etmək məqsədilə uçotun elektron bazası yaradılıb. Yeni Azərbaycan Partiyası sıralarına 27 nəfər qəbul edilib. Hazırda təşkilat 3540 nəfər partiya üzvünü birləşdirir. Onların 1684 nəfəri gənclər, 1384 nəfəri qadınlardır.

Şura iclasında 2017-ci ildə rayon partiya təşkilatının vəzifələri, fəaliyyət istiqamətləri müəyyən edilib.

Məruzə ətrafında təşkilatın Gənclər Birliyinin sədri Vüqar Muradovun, Qadınlar Şurasının sədri Mətanət Məmmədovanın çıxışları olub.

Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyinin, Qadınlar Şurasının 2017-ci ilə dair iş planları müzakirə edilərək təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı İdarə Heyətinin növbəti yığıncağı keçirilib, 9 nəfərin partiya sıralarına qəbul olunması haqqında ilk partiya təşkilatlarının qərarları təsdiq edilib.

## Şahbuz rayonunda quruculuq tədbirləri genişləndirilib



***Ötən il Şahbuz rayonunda quruculuq tədbirlərinin geniş vüsət alması daha çox investisiya qoyuluşuna səbəb olub, 2016-cı ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşunun həcmi 1,2 faiz artaraq 29 milyon 768,9 min manat təşkil edib.***

Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 1,8 faiz artaraq 26 milyon 306 min manata çatıb. Bəhs olunan dövrdə 168 yerlik Daylaqlı kənd tam orta məktəbi, kənd və xidmət mərkəzləri, Kiçikobada kənd və xidmət mərkəzləri istifadəyə verilib, hər iki kənddə kənddaxili yollara asfalt örtük salınıb, küçələrin işıqlandırılması təmin olunub.

Qeyd edək ki, Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün inşa edilən inzibati binada, eləcə də Kolanı kəndində 360 şagird yerlik məktəb binasında tikinti işləri başa çatdırılıb. Hazırda bu obyektlərdə son tamamlama işləri görülür. Bundan başqa, Kükü, Güney Qışlaq, Şahbuzkənd, Keçili kəndlərinin yollarında təmir işləri aparılıb. Daylaqlı kəndində 3,5 kilometr, Kiçikoba kəndində isə 3,6 kilometr məsafədə kənddaxili yollara asfalt salınıb.

Rayonda enerji təminatını daha da yaxşılaşdırmaq məqsədilə iki transformator quraşdırılıb, 22 abunəçinin evinə yeni elektrik xətti çəkilib. Quruculuq tədbirləri qaz və rabitə təsərrüfatlarını da əhatə edib. 30 abonent yeni qaz xətti ilə təchiz olunub, 81 telefon xətti çəkilib.

Son illər rayonun sosial-iqtisadi inkişafı bölgədə fərdi yaşayış evlərinin artmasına səbəb olur. Bəhs olunan dövrdə əhalinin şəxsi vəsaiti hesabına 16 yeni fərdi ev tikilib.

Xəbərlər şöbəsi

***Naxçıvanın muxtariyyəti məsələsi XX əsrin 20-ci illərində bölgədə baş vermiş ictimai-siyasi hadisələrin nəticəsində meydana çıxmışdı. 1918-ci ilin may ayında Cənubi Qafqazda müstəqil respublikaların – Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının yaranması onlar arasında ərazi-sərhəd məsələlərini həll etməyi zəruri etdi. Gürcüstan və Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürdü. Xüsusilə "böyük Ermənistan" yaratmaq xülyası ilə çıxış edən Ermənistan Respublikası Azərbaycanın bir sıra tarixi torpaqlarını – Qarabağı, Zəngəzuru, Naxçıvanı və başqa torpaqları öz ərazisinə qatmaq üçün açıq mübarizəyə başladı. Bu işdə onlara bir sıra dövlətlər siyasi, iqtisadi və hərbi yardım göstərirdi.***

# Naxçıvanın muxtariyyəti: *tarix və müasirlik*



Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətə, qarşılaşdığı daxili və xarici amillərə baxmayaraq, Naxçıvana imkan daxilində siyasi dəstək verir, ona iqtisadi və hərbi yardım göstərməyə çalışırdı. Naxçıvan əhalisi erməni daşnaklarına qarşı inadla mübarizə aparır, bölgəni qoruyub saxlamaq üçün bütün imkanlardan istifadə edirdi. Erməni silahlı qüvvələri qarşısında lazımi silah-sursata malik olmayan yerli müsəlman əhalisi, Müsəlman Milli Şurası, onun rəhbərləri – Cəfərqulu xan, Rəhim xan, Kalbalı xan və yerli ziyalılar erməni daşnaklarına qarşı mübarizə aparır və özünümüdafiə dəstələri yaradırdılar. Müsəlman Milli Şurası bölgənin təhlükəsizliyini təmin etmək üçün 1918-ci ilin noyabrında paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Cümhuriyyətini yaratdı. Araz-Türk Cümhuriyyətinin yaranması ilə bir sıra dövlət və idarəçilik orqanları yaradılmış, hökumətin tərkibi formalaşdırılmışdı. Hökumətin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Hökumətin başçısı vəzifəsinə Əmir bəy Nərimanbəyov seçilmişdi. Əmir bəy bölgə əhalisi arasında və siyasi dairələrdə çox bacarıqlı, vətənpərvər və millətsevər bir şəxsiyyət kimi dəyərləndirilirdi.

Araz-Türk Cümhuriyyətinin ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Eçmiədzin qəzasının bir hissəsi, İrəvan qəzasının Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar və Mehri bölgələri daxil idi. Sahəsi 8,7 min kv.km, əhalisi bir milyon nəfərdən artıq idi.

Araz-Türk Cümhuriyyətinin əsas vəzifəsi bölgənin təhlükəsizliyini erməni basqınlarından qorumaq üçün silahlı dəstələr yaratmaq və onların fəaliyyətini təmin etmək idi. Qısa müddətdə 500 nəfərlik süvari alayı və könüllü xalq dəstələrindən ibarət 20 tabor yaradıldı.

Araz-Türk Cümhuriyyəti Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Bu cümhuriyyət eyni zamanda erməni basqınlarına lazımi cavab verir, Naxçıvanın təhlükəsizliyini təmin edirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli 1919-cu ildə parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi, "igid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar".

Zəngəzur mahalı 1920-ci ildə Ermənistana veriləndən sonra Naxçıvan ölkənin əsas ərazisindən ayrı düşmüş, əlaqə pozulmuşdu. Belə olan halda Naxçıvan qəza və rayon hüququnda Azərbaycanın tərkibində qala bilməzdi. Ona görə də Naxçıvanın muxtariyyəti məsələsi gündəmə gəldi və bu, zəruri idi. Ümummilli lider Heydər Əliyev bununla əlaqədar deyirdi ki, "...əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də, Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".

Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Hərbi İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikaları arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Naxçıvan əhalisi bu bəyanata qarşı kəskin etirazını bildirdi. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan Respublikasının rəhbərliyi respublika Hərbi İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. O, Naxçıvan, Şərur və Ordubad əhalisi ilə görüşlərində, mitinqlərdə yerli əhalinin kütləvi etirazını təşkil edərək mərkəzi hakimiyyətin Ermənistanın xeyrinə qəbul etdiyi qərarın qarşısını aldı.

Naxçıvan diyarının əhalisi Azərbaycanın tərkibində muxtariyyət tələb edirdi. Ona görə də "1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü və iştirakı ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi". Bu, əslində, Naxçıvanın gələcək müqəddəratında mühüm rol oynadı.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan milli kommunistlərin arasında Behbud ağa Şahtaxtinskinin xüsusi əməyi olmuşdu. Onun V.Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqramında və əlavə etdiyi arayışda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ əhalisinin milli tərkibi və sayı haqqında məlumat verilir, Naxçıvanın müqəddəratı ilə bağlı təkliflər irəli sürülürdü. O qeyd edirdi ki, "Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir... Bu diyarın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur".

1921-ci il martın 16-da RK(b)P MK Siyasi bürosu Behbud ağa Şahtaxtinskinin təkliflərini bəyənərək, Azərbaycanın tərkibində Naxçıvan Sovet Sosialist Respublikası yaradılması haqqında qərar qəbul etdi. Həmin gün Rusiya ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi də imzalandı. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu altında muxtar ərazi olur-du, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir".

1921-ci il oktyabrın 13-də RSFSR nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilədə göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin beşinci maddəsində və üçüncü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir.

Beləliklə, Moskva və Qars beynəlxalq müqavilələri ilə RSFSR, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanıdı və ona beynəlxalq hüquqi təminat verdi.

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət tarixinin çətin sınaqlardan keçdiyini nəzərdə tutaraq, eyni zamanda bu muxtariyyətin qazanılmasında fədakarlıq göstərənlərin əməyini yüksək qiymətləndirərək deyirdi: ***"Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan vəzifə deyildi. Amma o vaxt milli mənafeyi qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm..."***

Naxçıvana muxtariyyət statusu 1921-ci ildə verilsə də, Naxçıvan Muxtar Respublikasının yaradılmasına qədər üç il vaxt lazım oldu. Hətta 1923-cü ildə Naxçıvanın muxtar respublika statusu azaldılaraq muxtar diyara çevrildi. Lakin muxtar diyar dövrü uzun sürmədi. 1923-cü ilin dekabrında Naxçıvan diyarı Naxçıvan Respublikasına çevrildi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan SSR-in yaradılması haqqında qərar verdi.

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ümummilli lider Heydər Əliyev deyirdi ki, ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir".***

80-ci illərin axırlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları baş qaldırmış, mərkəzin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı.

1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən xilas etdi.

1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə Heydər Əliyev hər iki qanunverici orqanın deputatı, 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu diyarın taleyini həll etdi. Heydər Əliyevin siyasi fəaliyyəti və artan nüfuzu o dövrdəki iqtidarı ciddi narahat edirdi. Ona görə də naşı siyasətçilər görkəmli dövlət xadimi Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq üçün Naxçıvanın muxtariyyətini ləğv etmək istəyirdilər. Lakin onlar başa düşmürdülər ki, Naxçıvana beynəlxalq müqavilələrlə muxtariyyət statusu verilib və bu statusu birtərəfli qaydada ləğv etmək olmaz.

Qətiyyətli və müdrik dövlət xadimi kimi Heydər Əliyev Naxçıvanı blokadadan qurtarmaq üçün 1992-ci ilin mart və avqust aylarında Türkiyə və İrana səfərlər etmiş, onlarla müqavilələr bağlamış, xüsusilə Türkiyə rəhbərləri ilə Qars müqaviləsini və onun şərtlərini müzakirə obyektinə çevirməklə beynəlxalq aləmin diqqətini ona cəlb etmişdi.

1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə xalqın və müstəqil dövlətçiliyin xilası və möhkəmləndirilməsinə başlandığı kimi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və muxtariyyətin qorunmasına diqqət daha da artırıldı. 1995-ci il noyabrın 12-də referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirdi.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının hazırlanmasına başlandı. Konstitusiya layihəsi Konstitusiya Komissiyasında bir neçə dəfə müzakirə edildi. Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında ümummilli lider Heydər Əliyev geniş nitq söylədi. Ulu öndər həmin nitqində Naxçıvanın muxtariyyətindən bəhs edərək dedi: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının birinci maddəsində göstərilirdi ki, "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Naxçıvan Muxtar Respublikasının statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir".

Naxçıvanın muxtariyyət statusu və buna əsasən yaradılan Naxçıvan Muxtar Respublikasının ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyəti olmuşdur. Bunu nəzərə alan Azərbaycan Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illiyi ilə əlaqədar sərəncamlar imzalamışdır. Sonuncu sərəncamda deyilir: "Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir... Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır".

Müstəqillik illərində çətinliklərlə qarşılaşan, erməni basqınları ilə üzləşən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdir. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbov Heydər Əliyev siyasi kursunu uğurla davam etdirdi. Ali Məclis Sədrinin rəhbərliyi ilə bölgənin üzləşdiyi problemlər müəyyənləşdirildi və onların həllinə başlandı. Muxtar respublikanın xarici əlaqələri xeyli artdı. Keçid məntəqələri istifadəyə verildi, sərhədyanı ticarət canlandırıldı. İqtisadiyyatın dirçəlməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verildi, yeni iş yerləri yaradıldı, sərhədlərin etibarlı təhlükəsizliyi təmin edildi. Naxçıvan Muxtar Respublikasında irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri genişləndi, tarixə, mədəniyyətə, təhsilə və elmə qayğının yeni mərhələsi başlandı.

Bu gün muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyətli məqam əks olunmuşdur. Həmin hissə Ali Məclis Sədrinin tövsiyəsi ilə hazırlanmış və nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilmişdir. Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan iki beynəlxalq müqaviləyə əsaslanır. Bundan başqa, qeyd olunmuşdur ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Maddənin sənədə daxil edilməsi Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir. İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən 1921-ci ildə qəbul olunan Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir.

*Ölkəmiz, o cümlədən muxtar respublikamız üçün mühüm olan beynəlxalq müqavilənin hüquqi qüvvəsinin Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilat tərəfindən tanınması, şübhəsiz ki, ölkə və muxtar respublika rəhbərliyinin bu sahədə apardığı fəal diplomatik fəaliyyətin məntiqi nəticəsidir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

*Xalq təqvimi*

## Naxçıvanda *“Xıdır Nəbi”* bayramı və Xızır Peyğəmbərlə bağlı inamlar haqqında bir neçə söz

***Naxçıvanın bir sıra kəndlərində və Naxçıvan şəhərində fevral ayında, yəni “qışın oğlan çağında”, “kiçik çillə tüğyan edən vaxt” xalq arasında “Xıdır Nəbi” adı ilə bilinən mərasim qeyd edilir. Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, bayram Xızır Peyğəmbərin şərəfinə keçirilir.***



Xızır Peyğəmbər ən çox çətinlik anında insanlara yardıma gəlir. Qədim Azərbaycan və Anadolu türklərinin inamına görə, qışın çətin dövründə, hazırlanmış qida, yanacaq və yem ehtiyatının azaldığı vaxt Xızır Peyğəmbərin çağırılması onun yardımına böyük ehtiyacla bağlıdır. Qışın ağırlığını bilən xalq darda qalanlara yardıma çatan Xızır Peyğəmbəri çağırmaq üçün onun şərəfinə mərasim keçirir. Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, bayram kiçik çillənin 10-cu günü, yəni fevralın 9-da qeyd olunur. Bir məsələ xüsusi qeyd edilməlidir ki, Naxçıvan şəhərində yanlış olaraq mərasim İslamla əlaqələndirilərək kiçik çillənin ilk cümə axşamında qeyd edilir. Hətta xalq arasında “bəylərin xıdırı”, “nökərlərin xıdırı”, “rəiyyətin xıdırı” deyə mərasimin üç cümə axşamı qeyd edildiyi də söylənməkdədir. Ədəbiyyat materiallarına söykənərək demək olar ki, şimal yarımkürəsinin bir sıra xalqlarında fevralın 9-u və 10-da buna bənzər mərasimlər vardır. Həmin mərasimlərdə məqsəd istiliyi çağırmaq, qışı yola salmaqdır. Hətta geniş meydanda qışın müqəvvasını düzəldib yandırırlar. Deməli, mərasim müəyyən cəhətdən bəşəri xarakter daşımaqla sırf astronomik məsələlərlə bağlıdır. Yəni bu, sabit vaxta malikdir.

Naxçıvanda Xıdır Nəbinin əsas simvolu qovurğa və qovut hesab edilir. Qovurğa ilə bərabər küncüd, günəbaxan toxumu, şabalıd, badam, noxud və sair qovrulur. Qovrulmuş toxumlar qovurğa ilə qarışdırılır. Qarışığa iydə, kişmiş, mövüc və başqa çərəzlər də qatılır. Qovurğa kirkirə, əl daşı (dəstər) adlanan alətlə çəkilir və qovut hazırlanırdı. Quru qovutu yemək çətin olduğundan ona doşab, şəkər tozu əlavə edib ovurlar. Çəkilmiş qovutu bir qaba doldurub axşamdan yükün üstünə və ya taxçaya qoyurdular ki, Xızır Peyğəmbər gecə ona əl basacaqdır. İnama görə, belə qovut şəfaverici xüsusiyyətlərə malik olur. Xıdır Nəbidə nişanlı qızlara, təzə gəlinlərə pay aparmaq adəti geniş yayılmışdır. Bayram gecəsi oğlan uşaqları qapılara gedib torba atır və bayramlıq alırlar. Bayramlıq almaq üçün uşaqlar aşağıdakı sözləri oxuyurlar:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdırın payını verərlər.*

***Və yaxud:***

*Çatma-çatma çatmaya,*
*Çatma yerə batmaya,*
*Hər kəs Xıdırın payını verməsə,*
*İstəyinə çatmaya.*

Beləcə, bütün tanış-bilişlərin, qohumların qapısını gəzib pay toplayırlar. Xıdır Nəbidə müxtəlif inamlara əməl edilir. Həmin gün evin kişisi baltanı götürüb gəlir barverməyən ağacın yanına və ucadan deyir ki, hava soyuq keçir, bu ağac isə barsızdır, kəsirəm yandıraq. Kənardan bir nəfər yaxınlaşıb onu tutur ki, kəsmə, bu il bar verəcək. Adət “balta çəkmə” adlanır.

Qarşılıqlı müqayisələr göstərir ki, Anadolunun bir sıra bölgələrində, Balkanın müsəlman-türk xalqları arasında “Xızır günü” aprelin 23-də qeyd olunur. Bu gündən əsl yazın başlandığına, 5-6-sı mayda isə Xızır Peyğəmbərlə İlyas Peyğəmbərin görüşünə inanılır. Diqqət verilsə bu, Naxçıvanda “qara yazın”, “yazan qurunun” bitməsinə uyğun gəlir. Beləliklə, istilik və yaşıllıq məbudları birləşirlər. Bundan sonra mal-qara, xüsusən quzular üçün şeşə sovuşur (“şeşə sovan”), meyvə ağaclarını və digər bitkiləri şaxta vurması təhlükəsi tam keçir. Oxşar inam və adətlər Naxçıvanda “Gülənay”, “Gülay” adları ilə məlum olmaqla təbii şəkildə yetişən pencərlərin, müxtəlif güllərin yığılması ilə mayın 5-də qeyd edilmişdir. Bütün bunlar Xıdır Nəbi, Xıdır-İlyasla bağlı xalq arasında olan adət və inamlardır. Elmi ədəbiyyatlarda, yazılı mənbələrdə Xızır Peyğəmbərlə, Xızır Nəbi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Müəlliflərin bir qismi Xızır sözünü istilik, etnos adı, təqvim adətləri ilə bağlayırlar. Təbii ki, Xıdır Nəbi mərasimi təqvimlə bağlıdır. Lakin adətin Xızır Peyğəmbərin şərəfinə keçirildiyi, ondan kömək umulduğu aydın şəkildə görünməkdədir.

Nağıl və dastanlarımızda, xalq inamlarımıza görə, Xızır Peyğəmbər darda qalanların imdadına çatır, xəstələrə şəfa verir, insanı muradına çatdırır. “Kitabi-Dədə Qorqud”da Xızır Peyğəmbər yaralı vəziyyətdə olan Buğacın üstünə gəlir, yarasını sığallayıb deyir ki, bu yaradan sənə ölüm yoxdur, dərmanın ana südü, dağ çiçəyidir. Xızır Peyğəmbər təkcə fiziki yardım deyil, elmi-mənəvi zənginləşmədə də ciddi rol oynayır. O, çox söz sahibidir, ilhamvericidir. Şeyx Nizaminin, Nəsiminin, Xətai və başqalarının əsərlərində onların həzrəti Xızırdan, həyat çeşməsindən (abi-həyat) bəhrələndikləri dönə-dönə qeyd edilmişdir. Qaynaqlara söykənərək demək olar ki, Xızır Peyğəmbərin elmi digərlərindən daha fərqli olmaqla çox yüksəkdir. O dərəcədə yüksəkdir ki, təkcə adi insanlar deyil, Musa Peyğəmbərə elm öyrədir. Hansı ki peyğəmbərlər elmi vəhy yolu ilə alırlar. Fikrimizi əsaslandırmaq üçün “Qurani-Kərim”in Hz. Xızır (ə.s) və Hz.Musa (ə.s) ilə əlaqələndirilən, “Kəhf” surəsinin 60-82-ci ayələrinə diqqət yetirmək olar. Həmin ayələrdə Musa Peyğəmbərin yüksək elm, bilik almaq üçün birini axtardığı və onunla rastlaşdıqları bəlli olur: “Qullarımızdan bir qula rastlaşdılar ki, biz ona qatımızdan bir rəhmət və lədünnümüz bir elm öyrətmişdik” (ayə 65). Ayədən aydın olur ki, ona adi elm deyil, lədün elmi öyrədilmişdir. Müqayisəli tutuşdurmalar göstərir ki, “Qurani-Kərim”in bir sıra tərcümələrində orijinaldakı “lədünn” ifadəsi verilməmişdir. Hansı ki bu ifadənin böyük önəmi vardır. “Min lədünna” – qatımızdan, tərəfimizdən mənasındadır. Yəni Allah qatından, Allah tərəfindən elm öyrədilməsi mənasındadır. Bir sıra təfsirçilər bununla Xızır Peyğəmbərə Musa Peyğəmbərdən fərqli bir elm verildiyini yazırlar. Musa Peyğəmbərin Xızır Peyğəmbəri tapmasında yemək üçün götürdükləri quru balığın suya düşüb canlanması əsas rol oynayır. Oxşar məsələyə Nizami Gəncəvinin “İsgəndərnamə” əsərində İsgəndərin dirilik suyu axtarmağa getməsində rast gəlirik. Əbədi həyat arzusunda olan İsgəndər bu səfərdə ona Xızır Peyğəmbərin rəhbərlik etməsini istəyir.

*Söylədi o zaman böyük İsgəndər,*
*Ona rəhbər olsun Xızır Peyğəmbər.*

Çox oxşar paralellər mövcuddur. Musa Peyğəmbər kimi, İsgəndər də müşkül işini aşırmaq, əbədi həyat qazanmaq üçün Xızır Peyğəmbəri rəhbər seçir. Lakin heç biri istəyinə çata bilmir. “İsgəndərnamə”də abi-həyat suyu ilə bağlı bir rəvayətdə İlyas Peyğəmbərin də Xızır Peyğəmbərlə birlikdə olmasından, süfrədəki duzlanmış quru balığın suya düşüb canlanması və beləliklə, dirilik suyunu tapmalarından, onların hər ikisinin həmin sudan içib qiyamətə qədər yaşayacaqlarından bəhs olunur. Burada da “Qurani-Kərim”dəki quru balıq məsələsi ilə bağlılıq vardır. Musa Peyğəmbər səbirsizlikdən Xızır Peyğəmbərdən istədiyini öyrənə bilmirsə, İsgəndər də dirilik suyundan içə bilmir. Bu məqamda bir məsələni qeyd etmək yerinə düşər. Nizami də “İsgəndərnamə”ni yazmaq üçün qeybdən hidayət, hikmət arayır. Bunun üçün bir sıra ayinlərə əməl edir. Nəhayət, niyazı qəbul olunur. Əsərin “Xızırın Nizamiyə təlimi” hissəsindən bu, aydın görünür:

*Cismani qulaqla duya bilməyən,*
*Bir sirri mənə Xızır öyrətdi dünən.*

Bu misralardan məlum olur ki, Nizami Xızır Peyğəmbərdən hikməti eşitmə, dinləmə yolu ilə almışdır. Çünki bu, eşitmədən yuxarıdır, ilham almaqdır. Allah sevimli qulunun qəlbinə Hz. Xızır vasitəsilə ilham etmişdir:

*Gövhər qaz İsgəndər mədənlərindən,*
*Gövhəri İsgəndər alacaq səndən.*

Mətndən Xızır Peyğəmbərin Nizamiyə əsəri necə yazmağı, hansı məqamlara diqqət yetirməyi bildirdiyi məlum olur:

*Xızırın sözlərin eşitdikcə mən,*
*Beynimdə bir xəyal doğdu yenidən.*
*Qəlbimdə yer tutdu, qəbuldur deyə,*
*Ürəkdən doğan söz yatar üryə.*
*Mənə bu saf öyüd əsər edincə,*
*İnciyə dil açdım incədən-incə.*

Bundan sonra böyük sənətkar İsgəndər haqqında dastan yazmağa başlayır.

Culfa bölgəsinin Şurud kəndindən topladığımız bir rəvayətə görə, İsgəndərlə zülmətə gedən və dirilik suyunu tapan Xızır Peyğəmbər bir bardaq dirilik suyu götürür ki, gətirsin insanlara. Yolda bir ağacın, bəzi rəvayətlərə görə, çinarın kölgəsində yatır, bardaq tökülür və su dolur bir çuxura. İki qarğa gəlib sudan içir. Ona görə də qarğalar üç yüz il yaşayırlar. Çinar ağacları da uzunömürlüdürlər.

*Həm “Qurani-Kərim”in ayələrindən, həm Xızır Peyğəmbərlə bağlı yazılı məlumatlardan, əsərlərdən aydın olur ki, Allah tərəfindən ona xüsusi elm, əbədi həyat verilmişdir. Xızır Peyğəmbər darda qalanların, çətinliyə düşənlərin, xəstələrin hamisinə çevrilməklə ən çətin anda onların dadına çatmışdır. Məhz qışın ən çətin dövründə Xızır Peyğəmbərin şərəfinə mərasim təşkil etmək, onu çağırmaq da “qara qışın” çətinliyindən xilas olmaq anlamına gəlir.*

**Hacı Qadir QƏDİRZADƏ**
***AMEA-nın müxbir üzvü***

---

***Bütün xalqların mədəniyyət incisi olan rəqs sənəti qədim tarixə malikdir və əsrlərlə yaşayaraq inkişaf edib, insanların ictimai həyat tərzinin, estetik zövqünün ayrılmaz hissəsinə çevrilib.***

*Ruhun qidası*

## Xalq rəqsləri tariximizi, milli xüsusiyyətlərimizi özündə əks etdirir



Rəqslər bilavasitə xalq musiqisi zəminində yaranıb və inkişaf edib. Əsrlərin sınağından keçmiş Azərbaycan xalq rəqsləri daim inkişafda olub, öz məna və vüsətini, forma və məzmununu dəyişib, təravətlənib.

Ölkəmizin elə bir bölgəsi tapılmaz ki, orada xalq rəqslərimiz sevilməsin, onlardan istifadə olunmasın. Xalq şənliklərini, toy mərasimlərini, bayramları rəqssiz təsəvvür etmək mümkün deyil. Rəqslərimiz ürkək baxışlarla, odlu qəlblərlə, çevik gəzişmələrlə, zərif qollarla, oynaq hərəkətlərlə daha da mənalıdır.

Alimlər Nuhun torpaq üzərinə çıxdığı Gəmiqayada, Bakının yaxınlığındakı Qobustanda qədim rəqslərdən xəbər verən qaya təsvirlərini – rəqs edən fiqurları aşkara çıxarıblar. Bu tapıntı bir qaynaqda belə ifadə olunur: “Uzaq keçmişin rəssamı bu rəsm təsvirini, təqribən, səkkiz-on min il bundan əvvəl yaradıb”.

Belə fərz edilir ki, qədim dövrün rəqsləri yalnız mərasim xarakterli rəqslər olub. Rəqs heç də tamaşa edilmək üçün deyildi, əksinə, müəyyən bir mərasimin vacib elementi kimi lazım gəlirdi.

Qədimdə dünyanın bir çox yerlərində oda, atəşə pərəstiş edilsə də, bu pərəstişkarlıq Şərq aləmində, eləcə də Azərbaycanda daha geniş yayılmışdı. Burada müxtəlif adət-ənənələr və rəqslər oda həsr edilər, tonqallar yandırılar, mərasim mahnıları və rəqslər icra olunar, odun gücünə inanan insanlar tonqal qalayıb onun ətrafına toplanaraq rəqs edərdilər.

Bəhs etdiyimiz o dövrlərdə rəqslər hələ sənət ustalığı deyildi. Onlar xeyli müddət sonra, tədricən, öz dini mərasim xarakterini və ibadət mənzərəsini dəyişərək sənət tərzinə düşdü.

Rəqslərimizin adlarının yaranma tarixçəsi də maraqlıdır. Rəqs adlarının çox az bir hissəsi təsadüfi adlar olduğu halda, əksər hissəsi, təxminən, müəyyən bir anlayış yaradır, nəyəsə, kiməsə həsr olunurdu. Bu həsredilmələr, əvvələn, təbiətə, güllərə, çiçəklərə və sairə aiddir. Müəyyən yerlərə – dağlara, dərələrə, kəndlərə, şəhərlərə həsr olunan rəqs adları da az deyildir.

“Abayı”, “Avarı”, “Ağır Qaradağı”, “Alça gülü”, “Asma-kəsmə”, “Asta Qarabağı”, “Vağzalı”, “Brilyant”, “Qazağı”, “Qaytağı”, “Dəsmalı”, “İnnabı”, “Heyvagülü”, “Darçını”, “Yallı” və sair kimi məşhur xalq rəqslərimiz mövcuddur. Bunlar içərisində yallı rəqsləri xüsusi yer tutur. Görkəmli bəstəkar Əfrasiyab Bədəlbəyli bu rəqslərə yüksək qiymət verərək yazır: “Burada çox intişar edən yallı forması bütün bir elin, bir obanın kollektiv surətdə öz sevinc duyğularını, bacarıq və istedadlarını təmsil edən əzəmətli bir yaradıcılığın parlaq təzahürüdür”.

Xalqımızın kütləvi rəqslərindən olan yallılar çeviklik, mətanət və zəhmət tələb edir. Bu rəqsin süjeti olduqca sadədir. Oynayanlar sırasından yallıbaşı seçilir. Bu, ən yaxşı oynayana verilən fəxri ad hesab edilir və keçmişdə həmin şəxslər böyük nüfuza malik idilər. Yallıbaşının əlində yaylıq olur. Bəzi mənbələrdə yallıbaşının əlində balaca çubuq olduğu da deyilir. Yallıbaşı rəqsin gedişinə rəhbərlik edir. Ona çox vaxt “ayaqçı”, yəni oynayanlar cərgəsinin axırında duran ifaçı kömək edir. Oynayanlardan heç birinin gözləmədiyi halda yallıbaşı birdən hərəkəti dəyişir. Cərgədə iştirak edənlərin hamısı onunla birlikdə tez yeni hərəkəti təkrar edir. Yallıda ən maraqlı cəhətlərdən biri də odur ki, yallıbaşı gözlənilmədən cibindən başqa nəsə çıxara bilər. İfaçılar da tez lənigimədən onun kimi etməlidirlər. Əlbəttə, onlar buna əvvəlcədən hazırlaşmış olurdular.

Yallıların bəzilərinin adı çox maraqlıdır. Məsələn, yallıya verilmiş “iki ayaq”, “üç ayaq”, “dörd ayaq” kimi belə adlar yallıların xoreoqrafiyasına, rəqsin iki addımlı, üç addımlı, dörd addımlı ünsürlərdən ibarət olmasına dəlalət edir.

Əvvəllər bu rəqslər dörd tempdə ifa olunar, aram, ağır hissə ilə başlar, tədricən tempi yeyinləşərdi. Sonradan isə yallılar üç cür – ağır-aram, yüngül-şən və yeyin ifa edilir.

Bu rəqslərin yüksək dəyərə malik olmasının nəticəsidir ki, yallıların şərəfinə onun gözəlliyini oxşayan şeirlər yazılıb, bəstəkarlar onu öz əsərlərinə daxil ediblər. Üzeyir Hacıbəyovun “Koroğlu”, Müslüm Maqomayevin “Nərgiz”, Cahangir Cahangirovun “Azad” operalarında, Soltan Hacıbəyovun “Gülşən” baletindəki yallılar geniş miqyasda tanınır.

Bu gün muxtar respublikamızda 40-dan çox yallı oynanılır. “Xələfi”, “Tənzərə”, “Köçəri”, “Höynəri”, “Qaleyi”, “Qazı-qazı”, “Sareyi”, “Şahgəldi”, “Tello”, “Söylə”, “Nazilə”, “Qızılbaş”, “Çökəli”, “Çaleyi”, “Göyçəməni”, “Hərilli”, “Xəlili”, “Əfşəri”, “Bəndi”, “Sındırma”, “Şərili”, “Tirməşal”, “Urfanı”, “Gilanı”, “Kərimbəy”, “Nuraşan”, “Baharı” və başqa yallılarımız bir elin həm tarixini, həm də əcdadlarımızın həyat ritmini, sevincini, babalarımızın yer titrədən ayaq və nərə səslərini, hər kəsi Vətən uğrunda birliyə, döyüşə çağıran ruhunu özündə yaşadır.

Naxçıvan Muxtar Respublikasında “Şərur” Xalq Yallı Ansamblı, Şərur Rayon Mədəniyyət Evinin “Şərur qönçələri” yallı ansamblı, Babək Rayon Mədəniyyət Evinin “El yallıları”, Ordubad Rayon Mədəniyyət Evinin “Nuray”, Kəngərli Rayon Mədəniyyət Evinin yallı qrupları və digər yallı kollektivləri fəaliyyət göstərir, onlar muxtar respublikada keçirilən müxtəlif tədbirlərdə iştirak edirlər.

Ulu öndər Heydər Əliyevin dediyi kimi, hər millətin əsas xarakterik cəhətləri onun milli-mənəvi dəyərləridir və hər xalq da məhz bu dəyərləri ilə başqalarından fərqlənir, seçilir. Bu mənada, “milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz”.

Bir milləti millət kimi tanımağa əsas verən amillərdən olan mədəni miraslarımızın təbliğində əlimizdən gələni edərək vətəndaşlıq borcumuzu yerinə yetirməliyik. Xalq yaşadıqca onun incəsənəti də yaşayacaq. Əsas odur ki, müəyyən dəyişikliklərə məruz qalmış şəkildə yox, olduğu kimi,əcdadlarımızdan bizə gəldiyi, orijinal halıyla yaşadaq!

**Fatma BABAYEVA**









# Canməkanım

*Qardaş-bacım, hər qarışı müqəddəsdir bu torpağın,*
*Düşmənsənsə göz çıxardar, dostsan əgər süfrə açar.*
*Dörd tərəfdən sərhədimə keşik çəkən Haçadağın*
*Ətəyindən əsən yellər gül qoxuyar, ətir saçar.*

*Bu yerlərin çaylarının şırıltısı nəğmə kimi,*
*Ruhuma bir sığal çəkər, hisslərimi tumarlayar.*
*Kim ki gəlib gəzib görsə mənim doğma şəhərimi*
*Deyəcək ki, bu dünyada yoxdu belə gözəl diyar.*

*Göy qurşağı göy üzünün yeddi rəngli möcüzəsi,*
*Yerdəki göy qurşağını Duzdağına baxan görər.*
*Mənim yaddaş saxlancımdan qopub gələn yallı səsi*
*Çətin gündə el-obanı yumruq kimi birləşdirər.*

*Hər daşı bir tarix dərsi, hər qayası bir kitabdı,*
*Gəmiqaya daşlarını birləşdirsən dastan olar.*
*Sərhədimdə duran əsgər sərt nidalı bir xitabdı,*
*"Dur" əmrini dinləməyən qurd ürəkli dostdan olar.*

*Batabatım allı-güllü don geyinmiş nazlı gəlin –*
*Şeh çiçəkli tellərini xəfif səhər mehi oxşar.*
*Altı-üstü əsatirdi, əfsanədi bu bölgənin –*
*Arpaçayın sularına Xan çobanım nəğmə qoşar.*

*Araz mənim lal axışlı, dərd baxışlı duzlu yaram,*
*Fəryadını duya bilsək içimizi göynədəcək.*
*Kədərimi Məlikməmməd inadıyla duzlayaram*
*Bilirəm ki, vaxt gələcək arzularım göyərəcək.*

*Bol məhsullu zəmilərin hər şırımı alın təri,*
*İnsanların əl qabarı qürur yeri, üz ağlığı.*
*Bu torpağı zəhmət ilə əkib-biçən gündən bəri*
*Tikan bitən çöllüklərdə çiçəklədi meyvə bağı.*

*Bir zamanlar zülmət olan bu yer indi nur yurdudu,*
*Ulduzları qısqandırar gecələrin işıq seli.*
*Naxçıvandı – Nuh çıxandı, bura qədim Nuh yurdudu,*
*Hara baxsan Tanrı işi, hər addımda Tanrı əli.*

*Təmizliyi könül açır, xoş havası ruha dolur,*
*Nə yaz, nə yay, nə payız-qış yaşamaqdan doymur adam.*
*Hər naxşına söz qoşuram, hər sözümə naxış olur,*
*Gözəlliklər sərgisidir mənim muxtar respublikam.*

*Canım yansa bir CAN deyər, ağrılarım candan çıxar.*
*Bura mənim can evimdir, bura mənim canməkanım,*
*Ürək əsər, ruh titrəyər, qəlb tövşüyər, can darıxar.*
*Bircə günlük səndən ayrı düşsəm əgər, Naxçıvanım.*

**Elxan YURDOĞLU**









## Yeni nəşr olunan kitablar Naxçıvanın tarixinin və mədəniyyətinin təbliği baxımından əhəmiyyətli mənbələrdir










***Yeni nəşrlərdən olan "Gülüstan türbəsi", "Naxçıvan dünya mətbuatında" kitabları və "Məmməd Araz qrafik albomu" muxtar respublikanın tarixi və mədəniyyətinin təbliği baxımından əhəmiyyətli mənbələrdirlər.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanan "Gülüstan türbəsi" kitabında Culfa rayonundakı Gülüstan türbəsi, onun tarixi, memarlıq xüsusiyyətləri, türbə ətrafındakı tarix-memarlıq abidələri, etnoqrafiyası və keramikası haqqında məlumat verilib. Nəşrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin türbənin bərpası ilə bağlı imzaladığı Sərəncamın mətni, türbənin bərpadan əvvəl və bərpadan sonrakı şəkilləri yer alıb.

Azərbaycan, rus və ingilis dillərində hazırlanan kitabda qeyd olunur ki, Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən türbə XII əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindəndir. Bu türbə böyük Əcəmi Naxçıvani memarlıq məktəbinin yadigarıdır.

"Naxçıvan dünya mətbuatında" kitabında Naxçıvan haqqında bir çox tanınmış qəzet, jurnal və internet saytlarında çap olunan materiallar yer alıb. Tanınmış mətbuat nümayəndələrinin Naxçıvan Muxtar Respublikasının elm, təhsil, mədəniyyət, səhiyyə və başqa sahələrdəki sürətli inkişafı haqqında məqalələri maraq doğurur. "İzvestiya" qəzetində Naxçıvanla bağlı dərc edilən materiallar da oxunaqlıdır.

"Məmməd Araz qrafik albomu"nda isə Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvü Kirman Abdin Məmməd Araz poeziyasının bədii estetik obrazını yaradıb. Albomda Məmməd Araz poeziyasının nəhayətsizliyi ilə rəssam təxəyyülünün vəhdətini görmək mümkündür.

**Xəbərlər şöbəsi**

## "Naxçıvan – doğma yurdum" mövzusunda keçirilən rəsm müsabiqəsi başa çatıb

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm, Təhsil nazirliklərinin tədbirlər planına əsasən muxtar respublikada fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında 1 noyabr 2016-cı il tarixdə start verilmiş "Naxçıvan – doğma yurdum" mövzusunda müsabiqədə Naxçıvan şəhəri və muxtar respublikanın bütün rayonları üzrə 186 məktəbli iştirak edib.***

Müsabiqəyə qədim diyarımızın təbiəti, Naxçıvanın tarix və memarlıq abidələri, şəhər və kəndlərimizin abadlıq və quruculuq həyatını əks etdirən mövzularla bərabər, bu yurdun mərd və mübariz insanlarının əks olunduğu rəsmlər də təqdim edilmişdi.

Qeyd edək ki, bundan əvvəl muxtar respublikanın bütün bölgələrində rayon mərhələləri keçirilib. Hər bir rayon üzrə keçirilən müsabiqədə adıçəkilən nazirliklərlə bərabər, muxtar respublikanın Rəssamlar Birliyinin nümayəndələri də münsiflər heyətinin tərkibində qiymətləndirmə aparıblar. Qaliblər diplomlarla təltif edilib, fərqlənən iştirakçılar isə fəxri fərmanlara layiq görülüblər. Muxtar respublika müsabiqəsində Ordubad, Şərur rayonlarından daha çox məktəbli iştirak edib.

Bu günlərdə muxtar respublika mərhələsi başa çatan müsabiqədə iştirak etmiş məktəblilərin 8 nəfəri I dərəcəli, 16 nəfəri II dərəcəli, 16 nəfəri III dərəcəli, 16 nəfəri isə fərqlənmə diplomuna layiq görülüblər. Qaliblərə fəxri fərmanlar verilib.

**Əli RZAYEV**

***"Narkomaniya və uşaq cinayətkarlığına qarşı" devizi altında fevralın 3-dən start götürən və 3 gün davam edən kikboksinq üzrə Azərbaycan çempionatına yekun vurulub.***

## İdmançımız Azərbaycan çempionu olub

Bakı Əl Oyunları İdman Sarayında keçirilən ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının idmançıları da mübarizə aparıblar. 67 kiloqram çəki dərəcəsində rinqə çıxan Ruslan Musayev finala gedən yolda Samir Musayevə, ardınca isə Elməddin Baxşəliyevə nokautla qalib gələrək yarımfinala yüksəlib. Həlledici qarşılaşmadan öncə Turan Qafarovu məğlub edən idmançımız finala yüksəlib. Final görüşündə isə onun rəqibi Arzuman Qədimov olub. Görüşü daha üstün keçirən Ruslan Musayev böyüklər arasında Azərbaycan çempionu adını qazanıb.

Qeyd edək ki, Ruslan Musayev indiyə qədər gənclər arasında 8, böyüklər arasında isə bir dəfə Azərbaycan çempionu olub.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Məmmədov Mətləb Asəf oğlunun adına olan 15544 inventar nömrəli texniki pasport və 39509 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 109